# İnsan hüquqlarının səmərəli təminat mexanizmi - Ombudsman

**Dövlətimizin yeni tarixi dövründə Şərqdə ilk olaraq 1918-ci ildə bəyan olunmuş müstəqilliyinin 1991-ci ildə bərpa olunduqdan sonra — 1993-cü ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin hakimiyyətə qayıtması ölkəmizin hərtərəfli inkişafında yeni mərhələ açmışdır.**

**Ölkəmizdə iqtisadi, sosial və mədəni sahələrlə yanaşı, hüquqi dövlət quruculuğu və demokratik təsisatların yaranması sahəsində də islahatlara başlanılmışdır. Tam əminliklə demək olar ki, ölkənin geniş müstəvidə inkişafı üçün Konstitusiyanın qısa müddətdə qəbul edilməsi əvəzsiz rol oynamış və hüquqi bazanın təkmilləşdirilməsinə münbit şərait yaranmışdır. Ölkəmiz 250-dən çox beynəlxalq konvensiyalara qoşulur, bunlara uyğun yüzlərlə qanunvericilik, normativ-hüquqi aktlar qəbul olunur, bu sənədlərin icrasını təmin etmək üçün institutlaşma, müvafiq dövlət qurumlarının yaradılması prosesi həyata keçirilir.**

Prezident Heydər Əliyev tərəfindən ölkəmizdə insan hüquqları sahəsində ilk strateji dövlət sənədi olan “İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” 22 fevral 1998-ci il tarixli Fərman imzalanmış və daha sonra həmin ilin 18 iyun tarixində “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı” təsdiq edilmişdir. Bu Proqramın qəbul olunması ölkəmizdə insan hüquq və azadlıqlarının təminatında yeni yanaşmanın tətbiqinə və bu sahədə institutlaşma prosesinin başlanmasına etibarlı zəmin yaratdı. İlk dəfə “İnsan hüquqları üzrə Azərbaycan Respublikasının səlahiyyətli müvəkkili təsisatının yaradılması” da məhz bu Dövlət Proqramında təsbit olunmuşdur.

2001-ci ilin yanvarın 25-də Azərbaycan Avropa Şurasına üzv seçilir, həmin ilin dekabrın 25-də “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Avropa Konvensiyası ratifikasiya olunur və bəzi ölkələrdə uzun illər davam etsə də, ölkəmizdə cəmi üç gün sonra, 2001-ci ilin dekabrın 28-də Milli Məclis tərəfindən Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında Konstitusiya statuslu Qanun qəbul olunur. 5 mart 2002-ci ildə isə ölkə Prezidenti tərəfindən həmin Qanunun tətbiq edilməsi haqqında Fərman imzalanır və beləliklə də təsisatın yaradılması və fəaliyyət göstərməsi üçün hüquqi və maddi bazası yaradılmışdır.

Ölkəmizdə ilk dəfə yaranmış, məqsədləri məhkəmədənkənar insan hüquqları və azadlıqlarının müdafiəsi olan bu qurum qısa müddətdə insanların hüquqi maarifləndirməsinə, hüquq düşüncəsi və hüquq mədəniyyəti, dövlətimizə demokratik idarəetməsinin daha da təkmilləşməsini, sabitliyin, davamlı inkişafında yeni uğurlara zəmin yaratdı, habelə beynəlxalq ombudsmanlar qurumları arasında səmərəli fəaliyyəti, təşəbbüsləri, innovativ yanaşmaları ilə özünə layiqli yer tutdu.

2002-ci il 24 avqust tarixində keçirilmiş referendumla ilk müstəqil Azərbaycan Respublikasının Konstitusiyasına bir sıra əlavə və dəyişikliklər edilmiş, eyni zamanda 95, 109 və 130-cu maddələrə İnsan Hüquqları üzrə Müvəkkilin seçilməsi və fəaliyyətinin əsasları ilə bağlı bəndlər daxil edilməklə praktiki olaraq Ombudsmanın Konstitusiya statuslu bir qurum olması ali hüquqi qüvvəyə malik olan əsas Qanunumuzda təsbit olundu.

Ombudsman haqqında Konstitusiya Qanununa uyğun olaraq Prezident Heydər Əliyevin təqdim etdiyi üç şəxsdən biri böyük səs çoxluğu ilə 2 iyul 2002-ci il tarixdə ölkənin ilk Ombudsmanı seçildi. Beləliklə, Azərbaycanda insan hüquqlarını müdafiə edən yeni qurumun əsası qoyuldu.

Ulu öndər Heydər Əliyevin ölkəmizin demokratik inkişafı ilə bağlı qərarları bu gün də aktuallığını itirmir, inkişafın əsas istiqamətlərini, strateji hədəfləri müəyyən edir. Bu siyasət müstəqil Azərbaycanda ölkə başçısı cənab İlham Əliyev tərəfindən bu gün də uğurla davam etdirilməkdədir. Yeri gəlmişkən, 5 mart 2010-cu ildə ikinci dəfə həmin müddətə ölkə Prezidenti İlham Əliyevin təqdim etdiyi üç şəxsdən biri yenidən Ombudsman seçildi.

Azərbaycanda müstəqil ombudsman modeli qanunverici, icra və ya məhkəmə hakimiyyəti qollarına aid olmadan xüsusi müstəqil qurumdur. O, prezident və ya parlament tərəfindən təyin oluna və ya seçilə bilər, lakin bundan sonra tam müstəqil fəaliyyət göstərir.

Azərbaycan Ombudsmanının müstəqilliyi Konstitusiya Qanununda da birbaşa göstərilmişdir. Eyni zamanda, bu qanuna əsasən Müvəkkil seçildiyi gün Azərbaycan Respublikası Milli Məclisinin iclasında and içir: “Azərbaycan Respublikasının insan hüquqları üzrə Müvəkkili vəzifəsində səlahiyyətlərimi şərəf və ləyaqətlə yerinə yetirəcəyimə, Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına əməl edəcəyimə, müstəqil və qərəzsiz fəaliyyət göstərəcəyimə and içirəm”. Bu andda da onun müstəqilliyi vurğulanır.

Ombudsman haqqında Konstitusiya Qanununa əsasən cari il bitdikdən sonra 2 aydan gec olmayaraq Müvəkkil ölkədə insan hüquqlarının qorunması haqqında Azərbaycan Respublikası Prezidentinə illik məruzəsini təqdim edir və həmin məruzə ilə Azərbaycan Respublikası Milli Məclisi qarşısında çıxış edir. Həmin illik məruzə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Konstitusiya Məhkəməsinə, Ali Məhkəməyə və Baş prokurora göndərilir.

İllik məruzələrdə ölkədə insan hüquqları ilə bağlı vəziyyət, həmçinin insan hüquqlarını pozan, onun tələbləri ilə hesablaşmayan dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri göstərilir və bununla əlaqədar görülmüş tədbirlər barədə məlumat, habelə insan hüquqlarının daha səmərəli müdafiəsinə, mövcud vəziyyətin təkmilləşdirilməsinə və idarəetmənin demokratikləşməsinə yönəlik təklif və tövsiyələr verilir. Qeyd olunmalıdır ki, Milli Məclis tərəfindən Müvəkkilin hər bir illik məruzəsi dinlənildikdən sonra yalnız “nəzərə alınsın” qərarı qəbul edilir.

Ombudsman təsisatının qısa müddətdə uğurla inkişaf etməsi, onun dövlət orqanları ilə əməkdaşlığı adı çəkilən Konstitusiya Qanunu ilə tənzimlənir. Onun ilk mandatında göstərilir ki, İnsan Hüquqları üzrə Müvəkkil vəzifəsi Azərbaycan Respublikasının Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və Azərbaycan Respublikasının dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi üçün təsis olunub. 2011-ci ildə isə mandata həmin Konstitusiya Qanunu ilə müəyyən edilmiş hallarda insan hüquqları pozuntularının qarşısının alınması da əlavə edilib.

Beləliklə, ölkəmizdə Ombudsman təsisatının yaradılması ulu öndər Heydər Əliyevin, bu təsisatın inkişafı isə möhtərəm Prezidentimiz İlham Əliyevin adı ilə bağlıdır.

Ombudsmanın əsas qayəsi - hər bir kəsin, ayrı-seçkiliyə yol vermədən bütün hüquqlarını təmin etmək naminə fərdlə dövlət arasında körpü rolunu oynayaraq, nəticədə demokratik idarəetməni təkmilləşdirmək, dövlət qurumlarının insan hüquqlarının təmin olunması, qanunun aliliyinin bərqərar olunması ilə dövlətdə sabitliyə və hərtərəfli dayanıqlı inkişafa dəstək verməkdədir. Ombudsman müstəqil olsa da, qərarları imperativ, icrası mütləq deyil, tövsiyə xarakteri daşıyır.

Odur ki, fəaliyyətinin ilk günlərindən hakimiyyətin üç qolunun hər biri - qanunvericilik, icra və məhkəmə ilə sıx əməkdaşlıq edir. Normativ-hüquqi bazanın təkmilləşdirilməsi sahəsində Milli Məclis, Konstitusiya Məhkəməsi ilə, həmçinin demokratik idarəetmənin təkmilləşməsi məqsədilə, Dövlət orqanları - Nazirlər Kabineti, Baş Prokurorluq, Daxili işlər, Ədliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi, Səhiyyə və Təhsil nazirlikləri — demək olar ki, bütün dövlət qurumları ilə sıx, qarşılıqlı hörmət və qanunun aliliyi əsasında məsuliyyətli, əməkdaşlıq əlaqələri qurulmuş və əhalinin müxtəlif qruplarının - uşaqların, qadınların, ahılların, əlilliyi olan şəxslərin, qaçqın və məcburi köçkünlərin, miqrantların, məhkumların, hərbi qulluqçuların, milli azlıqların və digər qrupların hüquqlarının müdafiəsi istiqamətində innovativ təşəbbüslərlə həyata keçirilməkdədir.

Fəaliyyəti dövründə çoxsaylı normativ-hüquqi aktlarla, o cümlədən ölkəmiz üçün əhəmiyyətli olan Konvensiyalara qoşulmaq, yeni qanunların və qüvvədə olan qanunlara əlavə və dəyişikliklərin qəbul olunması ilə bağlı öz təklif və tövsiyələrini Milli Məclisə təqdim etmişdir.

Yeri gəlmişkən, təklifimizlə Milli Məclisdə Ailə, qadın və uşaq məsələləri komitəsi yaradılmışdır ki, bu da həmin qəbildən olan insanların hüquqlarının müdafiəsi üçün yeni mühüm mexanizm olmuşdur.

Ümumiyyətlə fəaliyyəti dövründə Ombudsman tərəfindən səlahiyyətli dövlət qurumlarına - Azərbaycan Respublikası Prezidenti Administrasiyasına, Milli Məclisə, Nazirlər Kabinetinə, nazirliklərə və komitələrə 600-dən çox təkliflər verilmişdir ki, onların da yarısından çoxu artıq təmin olunmuş, bəziləri isə icraat mərhələsindədir.

Dövlətimiz tərəfindən daim insan hüquqlarının təmininə böyük diqqət yetirilməkdədir. 1998-ci ilin 18 iyun tarixində insan hüquqlarının müdafiəsinə dair ilk Dövlət Proqramı təsdiq edildiyindən Müvəkkilin təklifi ilə ölkə başçısı cənab İlham Əliyevin 2007-ci il 18 iyun tarixli Sərəncamına əsasən, dünyada yeganə ölkə olaraq respublikamızda bu tarix Milli insan hüquqları günü kimi təsis edilib.

Ombudsmanın insan hüquq və azadlıqları sahəsində təşəbbüsləri yüksək dəyərləndirilir. Belə ki, ölkəmizdə insan hüquqlarının vəziyyətinin monitorinqi üçün dəyərli vasitə olmuşdur ki, İnsan Hüquqları günü ilə bağlı təşəbbüsümüzlə hər il 18 may - 18 iyun tarixləri ölkəmizdə “İnsan hüquqları aylığı” kimi qeyd olunur. Aylıqla bağlı mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, eləcə də, vətəndaş cəmiyyəti, QHT və KİV-lərə, icmalara, ümumilikdə isə hər bir quruma bu günlərdə tədbirlərin həyata keçirilməsi, insan hüquqlarına diqqətin daha da artırılması, bu hüquqların təmini və təbliği məqsədini daşıyan müraciətlər edilir. Yekunda Aylığın nəticələri təhlil edilərək dərc olunur və ictimaiyyətə təqdim edilir. Belə aylıqlar “əlamətdar günlər” ərəfəsində də keçirilir. Yeri gəlmişkən, hər il ölkəmizdə Beynəlxalq Sülh Günü ilə bağlı 21 avqust - 21 sentyabr tarixlərində “Sülh aylığı”, Uşaq Hüquqları Konvensiyasının qəbul olunması tarixi ilə bağlı 20 oktyabr - 20 noyabr tarixlərində “Uşaq hüquqları aylığı” elan olunur. Həmçinin, bu aylıqlar və BMT-nin müvafiq günləri ilə bağlı Ombudsman təsisatı və Regional Mərkəzləri tərəfindən silsilə tədbirlər təşkil edilir ki, bu da dövlətin və cəmiyyətin diqqətini əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsinə yönəldilməsinə və bu sahədə maarifləndirmə işinin daha kütləvi şəkildə həyata keçirilməsinə zəmin yaradır.

İnsan hüquqları sahəsində həyata keçirilən islahatların məntiqi davamı olaraq, ölkə Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə 28 dekabr 2006-cı il tarixli “Azərbaycan Respublikasında İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı” və 27 dekabr 2011-ci il tarixli daha bir strateji sənəd “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı” (MFP) təsdiq olunmuşdur. Bu Proqramın icrasına 43 dövlət qurumunun, o cümlədən yerli icra hakimiyyəti orqanlarının cəlb olunması həmin sənədin icra mexanizminin effektivliyinə yönəlmişdir.

Proqramın 6 fəsli, müvafiq olaraq normativ-hüquqi bazanın təkmilləşdirilməsinə, əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsinə, insan hüquqları sahəsində dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə, tədris, elmi-analitik və maarifləndirmə tədbirlərinə, habelə beynəlxalq təşkilatlarla əməkdaşlığa, sonuncu isə MFP-nın həyata keçirilməsinin əlaqələndirilməsi, monitorinqi və qiymətləndirilməsinə həsr olunub.

Milli Fəaliyyət Planında olduğu kimi qeyd olunan Proqramın da həyata keçirilməsinin əlaqələndirilməsi üzrə İşçi qrupunun fəaliyyətinə rəhbərlik Müvəkkilə tövsiyə edilmiş, bir çox dövlət qurumlarını və vətəndaş cəmiyyəti institutlarını birləşdirən şəbəkə şəklində fəaliyyət təmin olunmuş, ötən illər ərzində Proqramda nəzərdə tutulmuş bir çox tədbirlərin icrası istiqamətində mühüm işlər görülmüşdür.

Yeri gəlmişkən, Müvəkkilin Avstriyanın Vyana şəhərində ATƏT-in İnsan Ölçüsü Komitəsinin iclasında MFP-nin geniş təqdimatı keçirmiş, bu sənəd üzv ölkələrin nümayəndələri tərəfindən böyük maraqla qarşılanmış və yüksək qiymətləndirilmişdir.

Ombudsmanın cəmiyyətə gətirdiyi yeniliklərdən biri də rəğbətlə qarşılanan və bu strateji sənədlərin icrasının səmərəliliyinin artırılması üzrə təşəbbüslərindən önəmlisi də ictimai iştirakçılığın bir forması olan ictimai dinləmələr olmuşdur. Belə ki, bu sənədlərin icrasının monitorinqi məqsədilə müntəzəm olaraq ölkənin demək olar ki, hər bir şəhər və rayonunda millət vəkillərinin, yerli icra hakimiyyəti, məhkəmə və digər hüquq-mühafizə orqanlarının, bələdiyyələrin, yerli QHT-lərin, KİV-lərin, habelə yerli icmaların nümayəndələrinin iştirakı ilə ictimai dinləmələr keçirilmişdir. Ölkəmiz üçün yenilik olan, aşkarlıq və kütləvilik prinsipinə əsaslanan ictimai dinləmələr iştirakçıların böyük fəallığı şəraitində keçirilməklə yerli əhalinin marağına səbəb olur. Məsləhətləşmə xarakterli bu ictimai dinləmələrdə yeni qəbul olunmuş qanunvericilik aktlarının və cari sənədlərin səmərəli icrasına, həmçinin insanların öz fikir və təkliflərini sərbəst surətdə ifadə etməsinə, bütün hüquqların hər bir kəsə, heç bir ayrı-seçkiliyə yol verilmədən məxsusluğu fikrinin möhkəmlənməsinə, bütövlükdə demokratik, layiqli idarəetmənin təkmilləşməsinə təkan verir. Belə tədbirlərdə yerli qurumların rəhbərləri, yüzlərlə sakinlər, habelə yerli və mərkəzi KİV nümayəndələri, QHT təmsilçiləri iştirak edir.

Ölkəmizdə uşaqların təhsil, sağlamlıq və digər hüquqlarının təmin olunması ilə bağlı ardıcıl, sistemli tədbirlər görülür, müəssisələrdə yaşayan valideyn himayəsindən məhrum olan uşaqlara dövlət, həmçinin Heydər Əliyev Fondu tərəfindən xüsusi diqqət yetirilir.

Qadınlara gəldikdə isə, onların əmək bazarında rəqabət qabiliyyətinin artırılması, qadınlar arasında sahibkarlığın inkişaf etdirilməsi, qadınlar tərəfindən yeni peşələrin əldə edilməsinə yönəlmiş kursların təşkili, məişət zorakılığına məruz qalmış qadınlar üçün reabilitasiya proqramlarının hazırlanması nəzərdə tutulmuşdur.

Həmçinin qadın hüquqlarının təmin olunması, onların idarəçilikdə önə çəkilməsi, qərar qəbuletmə səviyyəsində iştirakı, yeni parlamentdə, bələdiyyələrdə qadınların sayının artması prioritet məsələ kimi göstərilir. Bu istiqamətdə dövlət tərəfindən bir sıra tədbirlər görülmüş, nəticədə bələdiyyələrdə qadınların sayı 4 faizdən 35 faizə qədər artmışdır.

BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı və Uşaq Fondu ilə birgə məcburi köçkün və miqrantların hüquqları ilə bağlı müntəzəm görüşlər, yeni salınmış qəsəbələrdə, habelə sərhəd və gömrük işçiləri üçün təlimlər keçiririk.

Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının, habelə Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə qoşunlarının komandanları ilə birgə təsdiq etdiyimiz tədbirlər planı əsasında həmin qurumların səlahiyyətli nümayəndələri ilə birlikdə hərbi hissələrdə, o cümlədən təmas xəttində yerləşən bölmələrdə, insan hüquqları ilə bağlı təlimlər, habelə ideoloji, tərbiyəvi, gənc əsgərlərin vətənpərvərlik ruhunun yüksəldilməsinə yönəlik maarifləndirmə tədbirləri keçirilir.

Məhkumlara gəldikdə isə təkliflərimiz də nəzərə alınmaqla, “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” qanun qəbul edilmişdir. Bununla da, onların saxlanma şəraiti, qidalanması, tibbi xidmətin səviyyəsi, rəftarla bağlı məsələlər daha da təkmilləşdirilmiş, ailələri ilə görüşmələri, telefonla, məktubla ünsiyyət saxlamaları, televiziya verilişlərinə baxmaları və idmanla məşğul olmaları ilə bağlı müsbət yeniliklər qəbul edilmiş, fundamental hüquqlarının təminatları bu sənəddə öz əksini tapmışdır.

Yeganə dövlət olaraq həyata keçirdiyi humanizm prinsipinə uyğun olaraq, ölkə Prezidenti tərəfindən 62 əfv sərəncamı imzalanmış, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən isə 11 amnistiya aktı qəbul edilmişdir ki, bu da minlərlə islah olunmuş şəxsin vaxtından əvvəl cəzasının çəkilməmiş hissəsindən azad edilməsi, cəza müddətinin azaldılması, məhkumluğunun götürülməsi ilə müşayiət olaraq insan hüquqları sahəsində islahatların nəticəsi olmuşdur.

Bu baxımdan 10 fevral 2017-ci il tarixdə ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanmış Sərəncam da insan hüquqlarının effektiv təmini istiqamətində həyata keçirilən islahatların davamlılığı baxımından yeni imkanlar açır. Sərəncam mahiyyətcə hərtərəfli olmaqla, özündə insan hüquq və azadlıqlarının əsas prinsiplərini, azadlıq hüququnun təmini baxımından isə strateji, yeni və kompleks yanaşmaları, əsaslı dəyişiklik və əməkdaşlığı, Probasiya Xidmətinin yaradılmasını özündə ehtiva edir. Artıq cinayət qanunvericiliyinin humanistləşdirilməsi ilə bağlı ölkə başçısı tərəfindən qanunvericilik təşəbbüsü qaydasında müvafiq qanun layihəsi Milli Məclisə göndərilib.

Fəaliyyətimiz dövründə vəsatətlərimizə əsasən 566 məhkum, o cümlədən qadınlar, ahıllar, yeniyetmələr və digər məhkumlar əfv edilərək azadlığa buraxılmışdır.

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə sayca 4-cü olan və ötən ilin 28 May - Respublika Günü münasibətilə elan olunmuş amnistiya aktı 10 min məhkuma şamil edilmiş və çox mühüm bir hadisə kimi qarşılanmışdır.

Eyni zamanda, Konstitusiya Qanununa əsasən, Müvəkkil informasiya sahibi olan dövlət orqanlarının, yerli özünüidarə orqanlarının və vəzifəli şəxslərin “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələri yerinə yetirməsinə nəzarəti həyata keçirir. Bununla bağlı müraciətlərə Konstitusiya Qanununa uyğun olaraq baxılır və müvafiq tədbirlər görülür.

Ötən dövr ərzində heç bir ayrı-seçkiliyə yol vermədən çoxsaylı KİV təmsilçiləri, dövlət qurumlarının mətbuat xidmətlərinin nümayəndələri, həmçinin qeyri-hökumət təşkilatları ilə məsləhətləşmələr keçirilmiş və bu proses davam etməkdədir.

Bununla yanaşı, BMT-nin “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiyasının 33.2-ci maddəsində yaradılması nəzərdə tutulan müstəqil monitorinq mexanizminin funksiyalarının Müvəkkil tərəfindən həyata keçirilməsi məqsədəuyğun hesab edilmiş, tədbirlərin görülməsi tövsiyə olunmuş, bu məqsədlə tərəfimizdən müvafiq Konstitusiya Qanununa dəyişikliklər edilməsi barədə hazırlanmış layihə Milli Məclisə təqdim edilmişdir.

Hazırda bu səlahiyyətlərin səmərəli icrası istiqamətində zəruri təşkilati tədbirlərin həyata keçirilməsi, o cümlədən Ombudsman Aparatının strukturunun təkmilləşdirilməsi qarşıda duran vəzifələrdəndir.

Müvəkkilin ünvanına təkcə ötən il 18 mindən çox qəbul otağı, poçt və elektron poçtu, faks, regional mərkəzlər, qaynar xətlər, e-hökumət portalı vasitəsilə daxil olmuş hər bir müraciət qanunvericiliyə uyğun olaraq araşdırılmış, müvafiq tədbirlər görülmüş və hər biri yazılı şəkildə cavablandırılmış, səlahiyyətimizə aid olan şikayətlərin 60%-dən çoxu təmin olunmuşdur.

Eyni zamanda, bəzi müraciətlərimiz nəticəsində minlərlə insanın hüququnun təmin olunmasına nail olunmuşdur. Belə ki, Müvəkkil Konstitusiya Qanununa uyğun olaraq şəxsin hüquqlarının qüvvədə olan normativ aktlarla pozulduğu hallarda Konstitusiya Məhkəməsinə sorğu ilə müraciətlər etmişdir. 35 sorğulardan 20-si üzrə Plenum tərəfindən baxılaraq qərarlar (onlardan üçü qərardad olmaqla), on üç iş üzrə isə Palata tərəfindən istər nəzəri, istərsə də təcrübi əhəmiyyət kəsb edən genişləndirici şərhləri özündə ehtiva edən xarakterlidir, bu fəaliyyət davam etdirilir.

Qeyd etmək lazımdır ki, həmin qərar və qərardadlar nəticəsində mübahisələndirilən normaların məzmununun vahid qaydada anlaşılması, tətbiqi və qüvvədən düşməsi ilə ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının təmininə hüquqi zəmin yaranmışdır.

Dövlətimizin ali məqsəd kimi qarşıya qoyduğu vətəndaşlara layiqli həyat səviyyəsinin təmin edilməsi vəzifəsinin yerinə yetirilməsi istiqamətində uğurla davam etdirilən sosial-iqtisadi siyasət əhalinin rifahının getdikcə yaxşılaşmasında özünü göstərməkdədir. Son illər ərzində 5 milyondan çox yeni iş yerlərinin açılması, Strateji Yol Xəritələrinin qəbul olunması və icrası insanların sosial vəziyyətinin daha da yaxşılaşdırılmasına xidmət edir.

Ötən dövr ərzində dövlət qurumları ilə yanaşı, vətəndaş cəmiyyəti institutları, o cümlədən QHT-lər ilə səmərəli əməkdaşlıq əlaqələri qurulmasına diqqət yetirilmiş, insan hüquqlarının müdafiəsi sahəsində ixtisaslaşan dövlət orqanları təcrübəsində ilk dəfə olaraq Ombudsmanın yanında müstəqil Ekspertlər Şurası, habelə “Biznes və insan hüquqları” işçi qrupu yaradılmışdır. Əhalinin müxtəlif təbəqələrinin hüquqlarının daha etibarlı təmin edilməsi məqsədilə Ombudsmanın qadınların, uşaqların, ahılların, əlilliyi olanların, qaçqın və məcburi köçkünlərin, miqrantların, məhkumların, hərbi qulluqçuların hüquqlarının müdafiəsi, habelə insan alveri və korrupsiya ilə mübarizə və digər problemlər üzrə ixtisaslaşmış müşavirləri fəaliyyət göstərir.

Əhalinin müxtəlif kateqoriyalarının hüquqi biliklərə yiyələnməsinə, insan hüquqları sahəsində məlumatlılıq səviyyəsinin artırılmasına yönəlmiş hüquqi maarifləndirmə fəaliyyəti də inkişaf etdirilir.

İnsan hüquqları sahəsində kadrların hazırlanması işinə də fəaliyyət çərçivəsində geniş yer verilir. Ombudsman Aparatında “İnsan hüquqları sahəsində xüsusi qısamüddətli təhsil şəbəkəsi”ndə müxtəlif ali məktəblərin müvafiq ixtisaslar üzrə təhsil alan 310-dan çox tələbə və magistrantı istehsalat və elmi-tədqiqat təcrübəsi keçmişlər.

Hüquqi maarifləndirilmə işinin səmərəliliyinin artırılması məqsədi ilə 180-dən artıq hüquqi nəşrlər, kitablar, hüquq lüğətləri, tematik broşürlər, kitabçalar və b. hazırlanır, çap olunmuş və əhali arasında yayılır.

Bununla yanaşı, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, hüquq-mühafizə orqanları üçün kadr hazırlığını həyata keçirən Polis Akademiyası, Ədliyyə Akademiyası, Baş Prokurorluğun tədris mərkəzi, hərbi sahədə kadr hazırlayan təhsil müəssisələrində tədris proqramlarına əsasən gənc müdavimlərə, ixtisaslaşmaya cəlb olunmuş şəxslərə, hakimlərə, vəkillərə, dövlət qulluqçularına ünvanlanan ardıcıl maarifləndirici tədbirlər və təlimlər təşkil olunur ki, bu da insan hüquqları tədrisi vasitəsilə onların bilik və bacarıqlarının artırılmasına xidmət edir.

Bir çox innovativ təşəbbüslərimizdən biri də insan hüquqları təhsili və hüquqi maarifləndirmə baxımından formalaşdırılan müsbət təcrübələrdən biri də uşaqların təlimçi kimi iştirakçılığı ilə həyata keçirilən “Uşaq hüquqlarının pilləli tədrisi” proqramıdır. 2009-cu ildən paytaxtda və respublikanın regionlarında, o cümlədən ucqar kəndlərdə 150-dən çox ümumtəhsil məktəb cəlb edilmiş, bu prosesdə fərqlənmiş 8700-dən artıq şagird Ombudsman tərəfindən sertifikatla təltif edilmiş, 700-dən çox müəllim və direktor təşəkkürnamə almışdır. Bu fəaliyyətin davamlılığının təmini məqsədilə həmin məktəblərdə Uşaq Hüquqları Mərkəzləri yaradılmışdır. Ümumilikdə bu təşəbbüs beynəlxalq təşkilatlar tərəfindən müsbət qiymətləndirilir.

Yeri gəlmişkən, media ilə əməkdaşlığımız nəticəsində 4000-dən çox, təsisatın fəaliyyəti barədə KİV-də ümumilikdə 11.100-dən çox məqalə və informasiya dərc edilmişdir, həmçinin, 150 aylıq bülleten hazırlanıb saytımızda yerləşdirilmiş və dörd kitab şəklində press-relislər toplusu çap edilmişdir.

Ölkə daxilində müvafiq təşkilatlarla yanaşı, insan hüquqları ilə bağlı ölkəmizin qoşulduğu beynəlxalq sənədlərə uyğun olaraq BMT-nin demək olar ki, bütün qurumları, o cümlədən saziş qurumları, Avropa Şurası və bu təşkilatların ölkəmizdəki nümayəndəlikləri, həmçinin BMT-nin İşgəncələrin qarşısının alınması üzrə Alt Komitəsi (SPT), İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsi (CPT), İşgəncələrin qarşısının Alınması üzrə Assosiasiyası (APT) ilə sıx əməkdaşlıq əlaqələri qurulmuşdur.

Azərbaycan Ombudsmanı bu əməkdaşlıq əlaqələri kontekstində Avropa Birliyinin Şərq tərəfdaşlığı və Tvinninq layihələrində, Avropa Birliyinin TAİEX proqramında aktiv iştirak etməkdədir.

İnsan hüquqlarının müdafiəsi sahəsində fəaliyyətinə görə Azərbaycan Ombudsmanı Beynəlxalq və Avropa Ombudsmanlar institutlarına, habelə Asiya Ombudsmanlar Assosiasiyasına üzv qəbul olunmuş, Azərbaycan Ombudsmanı həmin Assosiasiyanın vitse-prezidenti vəzifəsinə seçilmişdir.

Yeri gəlmişkən, BMT-nin İnsan Hüquqları Şurasının Cenevrədə keçirilmiş, Genosid cinayətinin qarşısının alınması və cəzalandırılmasına dair Konvensiyanın 65-ci ildönümünə həsr edilmiş 25-ci sessiyasında Müvəkkilin genosidin qarşısının alınması, həmçinin Xocalı soyqırımı üzrə bəyanatları qurumun rəsmi sənədləri sırasında qeydiyyata alınmış, internet səhifəsində yerləşdirilmiş və 250 nüsxədə çap edilərək iştirakçılara paylanmışdır.

Fəaliyyətimiz dövründə erməni təcavüzü, Xocalı soyqırımı, insan hüquqları ilə bağlı 120 bəyanat qəbul edərək, BMT-nin Baş Katibinə, BMT-nin Təhlükəsizlik Şurasına, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, Avropa Komissiyasına, Avropa Şurasına, ATƏT-ə, Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, Beynəlxalq Sülh Bürosuna, müxtəlif ölkələrin ombudsmanlarına, Azərbaycan Respublikasının xarici ölkələrdəki və xarici ölkələrin respublikamızdakı səfirliklərinə, Azərbaycan diaspor təşkilatlarına ünvanlanmış, bu qurumlar tərəfindən rəsmi qeydə alınmış, bəzilərinin saytlarında yerləşdirilmiş və tədbirlərində istifadə olunur.

Ötən dövrdə Ombudsman və əməkdaşları 460-dan çox beynəlxalq konfransda iştirak edərək, çıxış və məruzələr etmiş, bəyanatlarımızı səsləndirmişlər. Eyni zamanda, bu dövrdə xarici ölkələrin Ombudsmanları - Polşa, Rusiya Federasiyası, onun subyektləri olan Moskva, Sverdlovsk, Saratov, Orenburq, Kaluqa vilayətləri, Dağıstan Respublikası, Tatarıstan Respublikası, Ukrayna, Özbəkistan, Gürcüstan, Moldova, Pakistan və bu yaxınlarda yeni seçilmiş Türkiyə Ombudsmanı ilə əməkdaşlıq sazişi imzalanmış və beləliklə on beşi icraatdadır, bununla qarşılıqlı əməkdaşlıqda soydaşlarımızın hüquqları müdafiə olunur, ölkəmiz haqqında həqiqətlər dünya ictimaiyyətinin diqqətinə bir daha çatdırılır.

Bu baxımdan ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə ölkə rəhbərliyinə qayıdış gününün - 15 iyun tarixinin Milli Məclisin qərarı ilə Azərbaycan xalqının Milli Qurtuluş Günü elan edilməsinin 20 illiyi və möhtərəm Prezidentimiz İlham Əliyevin Sərəncamı ilə ölkəmizdə 18 iyun tarixinin “İnsan Hüquqları Günü” kimi təsis edilməsinin 10 illiyi ərəfəsində 16-17 iyun 2017-ci il tarixlərində Türkiyə, Serbiya, Özbəkistan Respublikalarının, Rusiya Federasiyasının respublika və vilayətlərinin Ombudsman və nümayəndələrinin iştirakı ilə uğurla keçirilmiş Ombudsmanların ənənəvi XIV Bakı Beynəlxalq konfransının da “Dayanıqlı inkişafın təməl prinsipləri: hüquq bərabərliyi, milli prioritetlər və əməkdaşlıq” mövzusuna həsr edilməsi heç də təsadüfi olmamışdır. Bu konfranslarda 60-dan çox ölkənin ombudsmanları və insan hüquqları sahəsində tanınmış ekspertlər iştirak etmiş, mövzuların aktual məsələlərə həsr olunması maraqlarına səbəb olmuş, Bakı bəyannamələri qəbul edilmiş və həmin ölkələrin Ombudsmanları bu sənədlərin icrasına qatılmışlar. 14 belə konfransdan 11-i UNESCO tərəfindən dəstəklənmiş, materialları çap olunmuş və paylanmışdır. Ötən dövrdə həmin konfransda iştirak edən qonaqları ölkə Prezidenti və Milli Məclisin rəhbərliyi qəbul etmişlər.

Ombudsmanların iştirakı ilə keçirilən bu konfranslarda Azərbaycan Ombudsmanının fəaliyyətini, habelə onlar dünyada Azərbaycan brendi kimi tanınan “ASAN Xidmət” mərkəzlərinin fəaliyyəti ilə tanış olarkən bu xidməti yüksək dəyərləndirmişlər.

Təqdirəlayiq haldır ki, ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamları ilə ötəl ilin Azərbaycanda “Multikulturalizm ili”, bu ilin isə “İslam Həmrəyliyi İli” elan olunması çox böyük siyasi uzaqgörənliklə irəli sürülən əhəmiyyətli bir ideya olmaqla bərabər Azərbaycanda tolerantlığa, birgəyaşama dəyərlərinə olan münasibətin təzahürü kimi xalqımız tərəfindən də yüksək qiymətləndirilir. Artıq Azərbaycan modelini bir çox ölkələr örnək kimi qəbul edir və yüksək dəyərləndirir.

Tarix boyu Azərbaycan, ərazisində məkan salmış bütün millətlərin, dinlərin nümayəndələrinin sülh, mehribanlıq, qarşılıqlı anlaşma və əməkdaşlıq şəraitində yaşadığı Vətəni olmuşdur. Bu doğma mehriban münasibətlər millətlər arasında əlaqələrin daha da inkişaf etdirilməsinə təkan vermişdir.

Sevindirici haldır ki, ölkə Prezidentinin müvafiq Sərəncamı ilə yaradılmış IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın sədrlik etməsi ilk Avropa Oyunlarında, bu il isə IV İslam Həmrəyliyi Oyunlarının da layiqincə keçirilməsinə zəmin yaratmışdır. Beləliklə 56 ölkənin iştirakı ilə keçirilən yarışlarda idmançılarımızın qalibiyyətləri ilə ölkəmiz komandalar arasında lider olmuşdur. Yeri gəlmişkən, Bakıda dünyanın ən nüfuzlu idman yarışlarından biri - Formula-1 Azərbaycan Qran-Prisi də uğurla başa çatmışdır.



Elmira SÜLEYMANOVA,
Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman).

Həyata keçirilən bütün bu tədbirlər ölkəmizin tolerantlıq və multikulturalizm prinsiplərinə bağlılığının bariz nümunəsi olmaqla yanaşı, onun idman şöhrətinin artırılmasına, beynəlxalq nüfuzunun daha da möhkəmləndirilməsinə xidmət edir. Bunun özülündə isə təbii ki, ölkəmizdə ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda, insan hüquqları sahəsində islahatlar nəticəsində Azərbaycan bir çox göstəricilər üzrə sürətlə inkişaf edən öndər ölkəyə çevrilməsi faktı durur.

Qeyd olunmalıdır ki, dünyanın bütün ölkələrinin dərin iqtisadi böhran keçirdiyi bir dövrdə, Azərbaycanı iqtisadi rəqabət qabiliyyətinə görə dünyada 37-ci, MDB məkanında isə birinci yerdə qərarlaşmasına nail olunmuşdur. Bütün bu uğurlar dünya birliyinin gözü qarşısında 25 ildən artıqdır ki, davam edən erməni təcavüzü nəticəsində torpaqlarının beşdən bir hissəsi zəbt olunmuş, bir milyondan çox qaçqın və məcburi köçkünü olan bir ölkədə baş vermişdir.

2016-cı ilin aprel ayında Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əks-hücum hərbi əməliyyatı nəticəsində Ağdərə, Füzuli və Cəbrayıl istiqamətlərində strateji yüksəkliklər, o cümlədən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi erməni işğalından azad edilmişdir. Bu döyüşlərdən sonra cənab Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva sərhədyanı rayonlarda insanlarla görüşmüş, vəziyyətlə və ehtiyaclarla tanış olmuşlar. Ölkə Prezidentinin sərəncamlarına əsasən insanların təhlükəsiz yaşamasının təmin edilməsi, dağıdılmış mənzillərin və infrastrukturun qısa müddətdə bərpası, azad edilmiş torpaqlarda tarixən yaşamış dinc əhalinin öz doğma yurdlarına qayıtması üçün əsaslı yenidənqurma işlərinin başlanması ilə bağlı zəruri tədbirlər görülmüşdür. Cocuq Mərcanlı kəndində 50 fərdi yaşayış evi, məktəb binası, məscid və müvafiq infrastruktur, habelə həmin kəndə gedən 9 km-lik yol tikilmiş, bərpa və quruculuq işləri davam etdirilir.

Təqdirəlayiq haldır ki, Böyük Qayıdışın başlanğıcı olan və yenidən qurulan bu kəndə ölkə Prezidenti cənab İlham Əliyev gedərək orada görülən işlərlə tanış olmuş, sakinlərlə görüşmüş və böyük ruh yüksəkliyi ilə qarşılanmışdır.

Beləliklə, insan hüquqları sahəsində üç strateji əhəmiyyət kəsb edən dövlət sənədinin təsdiq edilməsi və icrası ölkədə insan hüquqlarının müdafiəsi sahəsində qanunvericiliyin beynəlxalq normalara uyğunlaşdırılmasına və yeni qanunların qəbul edilməsinə, dövlət qurumlarının fəaliyyətinin təkmilləşdirilməsinə, insanlara xidmət səviyyəsinin yüksəlməsinə, əhalinin müxtəlif qruplarının hüquqlarının daha səmərəli müdafiəsinə, qaçqın və məcburi köçkünlərin pozulmuş hüquqlarının beynəlxalq müstəvidə müdafiə olunmasına, ümumilikdə isə ölkəmizdə hüquqi, sosial və iqtisadi inkişafa imkan yaratmışdır.

Bu uğurların əldə edilməsində Ombudsman təsisatı da mühüm mexanizm olmuşdur.

Azərbaycanın əldə etdiyi yeni-yeni nailiyyətlər, həyata keçirdiyi mütərəqqi islahatlar, onun beynəlxalq nüfuzunun davamlı inkişafa və insan hüquqlarının etibarlı təmininə xidmət edən məqsədyönlü fəaliyyətin nəticəsidir.

Müasir dünyada hər bir ölkənin demokratik, hüquqi dəyərinin əsas meyarlardan biri insan hüquq və azadlıqlarının təmin olunması vəziyyətidir.

Odur ki, bu gün ölkə həyatının bütün sahələrində inkişaf siyasətinin əsas strateji hədəflərini ehtiva edən və həyata keçirilməsi müvafiq Dövlət proqramları vasitəsilə gerçəkləşdirilən “Azərbaycan 2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyası da səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, əhalinin sosial rifah halının yüksəksəldilməsi, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunması, insan hüquqlarının inkişafı və təmin olunmasının səmərəliliyinin artırılması baxımından ümidli gələcəyə aparan strateji yol xəritəsidir. Eyni zamanda bu Konsepsiya Dayanıqlı İnkişaf Məqsədlərinin prioritet istiqamətləri ilə həmahəngdir.

Ötən dövr ərzində formalaşmış zəngin təcrübəyə əsasən inamla deyə bilərik ki, milli səviyyədə insan hüquqlarının təşviqi və müdafiəsi məqsədilə yaradılaraq məhkəmədənkənar hüquq müdafiə mexanizmi və milli insan hüquqları institutu kimi uğurla fəaliyyət göstərən Ombudsman təsisatı bundan sonra da ölkəmizdə hər bir kəsin insan hüquqlarının səmərəli müdafiəsinə xidmət etməklə Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun yeni nailiyyətlərin əldə olunmasına öz töhfəsini verəcəkdir. ■